

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*


**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 4 (23.416)

*10 yanvar 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin idarə heyətinin sədri Mohammad Abunayyanı və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin icraçı direktoru Mohammed Jameel Al Ramahini qəbul edib.

Prezident İlham Əliyev qonaqları Azərbaycanda görməkdən şad olduğunu bildirib, enerji, xüsusilə bərpaolunan enerji resursları sektorunda aparıcı şirkətlər olan "ACWA Power" və "Masdar" şirkətləri ilə imzalanan çox mühüm İcra Müqaviləsi münasibətilə onları təbrik edib. Vurğulanıb ki, bu müqavilə Azərbaycanda enerji layihələrinin inkişafında yeni səhifə açacaq. Çünki bərpaolunan enerji bu gün bizim üçün enerji sektorunda prioritetlərdən biridir. Azərbaycan artıq özünün elektrik enerjisi ehtiyaclarını təmin edir və həm də elektrik enerjisi ixrac edir. Bu İcra Müqaviləsinin əhəmiyyəti ondan ibarətdir ki, külək və Günəş elektrik stansiyaları investorların vəsaiti hesabına tikiləcək.

Qonaqlar Mohammad Abunayyan və Mohammed Jameel Al Ramahi imzalanan müqaviləyə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## Aqrar Sığorta Fondunun yaradılması barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasında aqrar sığorta sisteminin təşkili və inkişafını təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasında "Aqrar Sığorta Fondu" qeyri-kommersiya hüquqi şəxsi (bundan sonra – Fond) yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. Fondun nizamnaməsini təsdiq etsin;

2.2. Fondun ilkin nizamnamə kapitalının formalaşdırılmasını təmin etsin;

2.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi aqrar sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsini hər il üçün dövlət büdcəsinin layihəsində nəzərdə tutulmasını təmin etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 yanvar 2020-ci il*

## Ötən ilin yekunları və qarşıda duran vəzifələr müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində keçirilən iclası nazir Mayis Əliyev açıb. Bildirilib ki, hesabat ilində ətraf mühitin mühafizəsi sahəsində 87 yoxlama-reyd aparılıb, hüquqi və fiziki şəxslər tərəfindən yol verilmiş qanun pozuntularına görə 39 protokol tərtib olunub və qanunamüvafiq tədbirlər görülüb. Atmosfer yağıntıları, torpaq və səth suları, o cümlədən ətraf mühitin radioaktiv çirklənməsi üzrə monitorinq fəaliyyəti davam etdirilib. Səth sularının çirklənməsinin monitorinqi çərçivəsində 19 çay, 171 içməli su (kəhriz, bulaq, subartezian quyuları) mənbəyindən, ümumilikdə, 190 su nümunəsi götürülərək üzərində 2850 analiz aparılıb, nəticədə, yüksək və ekstremal çirklənmə halları qeydə alınmayıb.

Vurğulanıb ki, muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması üçün ən mühüm amil olan meşələrin mühafizəsi, yeni meyvə bağlarının, meşə massivlərinin, yaşıllıq zolaqlarının salınmasına xüsusi diqqət yetirilib. Bu sahənin inkişafı ilə əlaqədar təsdiq edilmiş müvafiq dövlət proqramına, sərəncama uyğun olaraq 2019-cu ildə, ümumilikdə, 583,2 hektar sahədə yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirləri icra edilib. Bunun 238,5 hektarı yeni meyvə, 13,8 hektarı üzüm bağları, 147,9 hektarı meşəbərpa, 183 hektarı isə toxumla əkin işləridir. Yaşıllaşdırma tədbirlərində 323 min 630 meyvə tingi, həmişəyaşıl ağaclar, meşə tingi, bəzək və gül kolları, 1929 kiloqram müxtəlif meyvə toxumları əkilib. Muxtar respublikada ailə təsərrüfatları, idarə və təşkilatlar tərəfindən, ümumilikdə, 297,4 hektar sahədə meşəsalma və meşəbərpa tədbirləri icra edilib.

Qeyd olunub ki, yaşıllaşdırma tədbirlərində tingə olan tələbatın davamlı təmin edilməsi üçün regionun torpaq və iqlim xüsusiyyətlərinə uyğunlaşdırılmış ting materialının yetişdirilməsi məqsədilə 4,2 hektar ərazidə toxmacarlıq və qələmköklündirmə sahələri yaradılıb. Yaşıllıqların artırılması ilə bərabər, onları mühafizə etmək və aqrotexniki qulluq işləri də diqqətdə saxlanılır. Muxtar respublika ərazisində son 26 ildə 19 min hektardan çox sahədə meyvə bağları, meşə massivləri, yaşıllıq zolaqları salınıb və ətraf mühitin mühafizəsi sahəsində həyata keçirilən dövlət tədbirləri nəticəsində meşə və qeyri-meşə fondu ərazilərində yaşıllıqların sahəsi 1990-cı illərlə müqayisədə 0,6 faizdən 20 faizədək artırılıb.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.



Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətində keçirilən iclası giriş sözü ilə xidmətin rəisi Əli Hüseynəliyev açaraq bildirib ki, Ali Məclis Sədrinin 2018-ci il 22 oktyabr tarixli Fərmanına əsasən muxtar respublika üzrə avtomobil nəqliyyatı ilə sərnişin daşınması fəaliyyətinə lisenziyaların verilməsi işi 2019-cu ildə də uğurla davam etdirilib, hesabat dövrü ərzində 803 sahibkara lisenziya təqdim olunub.

Qeyd edilib ki, 2019-cu il ərzində muxtar respublika daxilində sərnişindaşıma xidmətinin səviyyəsi daha da yüksəldilib, 135 marşrut xəttində 313 avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilib.

Vurğulanıb ki, beynəlxalq sərnişindaşıma xidməti göstərən avtobusların fəaliyyəti də diqqətdə saxlanılıb, Türkiyə və İran İslam respublikalarının şirkətləri ilə bağlanmış müqavilələr əsasında sərnişindaşıma xidməti həyata keçirilib. Ali Məclis Sədrinin tapşırığına uyğun olaraq muxtar respublika sakinlərinin Bakı şəhəri ilə əlaqəsinin daha da genişləndirilməsi və vaxt itkisinin azaldılması məqsədilə 2019-cu il yanvar ayının 11-dən etibarən Naxçıvan-Bakı-Naxçıvan marşrutunun gündüz reysləri ilə yanaşı, gecə reysləri də fəaliyyətə başlayıb. Bu marşrutdan istifadə edən sərnişinlərə göstərilən nəqliyyat xidmətlərinin səviyyəsini yüksəltmək məqsədilə ötən ilin iyul ayından başlayaraq Naxçıvan-Bakı-Naxçıvan marşrut xətti üzrə hərəkət edən avtobuslara tətbiq olunan gömrük nəzarəti sadələşdirilib. Bu məqsədlə Naxçıvan şəhərindəki Avtovağzal Kompleksində gömrük nəzarəti zonası yaradılıb. Bu da sərnişinlərin rahatlığının təmin edilməsinə, sərhədkeçmə prosesinin sürətləndirilməsinə və avtobusların mənzilbaşına daha tez çatmalarına geniş imkanlar yaradıb. 2019-cu il ərzində bu marşrutla Naxçıvandan Bakıya, ümumilikdə, 950 reys edilib, 30 min 906 sərnişin daşınıb.

İclas məruzə ətrafında çıxışlarla davam edib.

* * *

Naxçıvan Dövlət Universitetində 2019-cu ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib. Universitetin rektoru, dosent Elbrus İsayev çıxışında qeyd edib ki, Naxçıvanda ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün muxtar respublika sosial-iqtisadi sahədə irəliləyişə, ictimai həyatda nailiyyətlərə, müdafiə və təhlükəsizlik istiqamətində aparılan uğurlu siyasətə nail olub.

Naxçıvanın bu gün nəinki ölkə miqyasında, hətta dünyada belə, əksər ölkələr üçün modern bir nümunə olduğunu diqqətə çatdıran rektor onu da vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı da bu istiqamətdə ölkə universitetlərinə örnək olan bir addımdır. Sərəncam universitet qarşısında yeni vəzifələr – innovasiya layihələrinin məqsədyönlü axtarışı və reallaşdırılması, elmi nailiyyətlərin və yeni texnologiyaların sahibkarlıq strukturlarına ötürülməsi, investorlar üçün cəlbedici ola biləcək layihələrin hazırlanması və sair kimi vəzifələr müəyyənləşdirir, irəli sürülən məqsədlər ali məktəblərin innovasiyalı inkişafın aktiv subyektlərinə çevrilməsini tələb edir.



Bildirilib ki, muxtar respublikada aparılan təhsil strategiyasının uğurlu həllidir ki, Naxçıvan Dövlət Universiteti üçün hər il bir tədris korpusu tikilir və ya əsaslı surətdə təmir olunaraq elmi-ictimai mühitin ixtiyarına verilir. 2019-cu il 14 iyun tarixində universitetin Tibb fakültəsinin qurulması və yüksək maddi-texniki baza ilə təmin olunması göstərilən qayğıya bariz nümunədir.

Rektor universitetin beynəlxalq əlaqələrinin yüksək inkişafından danışaraq hazırda bu ali təhsil ocağında 10 ölkədən 800-ə yaxın tələbənin təhsil aldığını qeyd edib, əcnəbi tələbələrin sayına görə də bu ali təhsil ocağının ölkə universitetləri sırasında seçildiyi vurğulanıb.

Məruzə ətrafında çıxışlar dinlənildikdən sonra rektor ixtisaslı kadrların yetişdirilməsi, gənclərin elmi-tədqiqat işlərinə cəlbi, tədris və elmi-metodik vəsaitlərin müasir dövrün tələblərinə uyğun hazırlanması, 4+1 layihəsi çərçivəsində universitetdə tədrisin ingilis dilində aparılması üçün müvafiq ixtisasların seçilməsi istiqamətində qarşıda duran vəzifələrdən danışıb.

Sonda universitetin professor-müəllim heyəti hesabat dövrünün ən uğurlu nəticəsi kimi qeyd olunan Tibb fakültəsinə, orada qurulan avadanlıqlara baxıb, mövcud imkanları dəyərləndirib.

**Xəbərlər şöbəsi**



***Bu günlərdə Bakıda olarkən paytaxtımızda yaşayan və fəaliyyət göstərən hər bir naxçıvanlının üz tutduğu ünvana – Bakı şəhərindəki Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinə yollandım. Məqsədim nümayəndəliyin fəaliyyəti ilə maraqlanıb onu oxuculara təqdim etmək idi. Üçmərtəbəli yaraşıqlı binaya daxil olarkən özümü ulu Naxçıvanımızın hüdudları daxilində, doğma bir məkandaymış kimi hiss etdim. Doğrudur, gözəl və müasir Bakı ölkəmizin paytaxtı kimi hər birimizin baş tacı, doğma şəhərimizdir. Buna baxmayaraq, təhsilimlə əlaqədar 1 aya yaxındır, Naxçıvandan ayrı düşdüyümdən doğma diyarım üçün yamanca darıxdığımı etiraf etməliyəm. Bəlkə də, buna görədir ki, Daimi Nümayəndəliyin binasına daxil olduğum anda qədim və müasir Naxçıvanın qəlbimdə tamam başqa məhəbbət dolu yer tutduğuna bir daha əmin oldum. İlk andan kollektivin məni gülərüz, səmimi qarşılaması və mehriban münasibəti məndə xoş təəssürat oyatdı. Əmin oldum ki, burada Daimi Nümayəndəliyin rəhbəri və onun müavini ilə yanaşı, sektorlar üzrə fəaliyyət göstərən bilikli, savadlı, təcrübəli gənclər də paytaxtımızda doğma Naxçıvanımızı layiqincə təmsil edirlər. Əməkdaşlarla qısa tanışlıqdan sonra Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərovla görüşümüz isə daha yaddaqalan oldu. Bəxtiyar müəllimlə söhbətimizə bu qurumun fəaliyyət istiqamətləri barədə başladıq.***

# Paytaxtımızdakı Naxçıvan...

## *Naxçıvanın Bakıdakı Daimi Nümayəndəliyi doğma yurdumuzun layiqli təmsilçisidir*

***– Bəxtiyar müəllim, Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyi nə vaxtdan fəaliyyət göstərir və fəaliyyət istiqamətləri hansılardır?***

– Daimi Nümayəndəlik 27 ildir ki, fəaliyyət göstərir. Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi vaxtda, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1992-ci il 24 fevral tarixli qərarı ilə yaradılıb. Ali Məclisin Sədri cənab Vasif Talıbovun 2010-cu il 21 aprel tarixli Fərmanı ilə Daimi Nümayəndəliyin yeni Əsasnaməsi təsdiq olunub və fəaliyyət istiqamətləri müəyyənləşib.

Daimi nümayəndəliyin əsas fəaliyyət istiqamətlərinə gəldikdə, qısaca onu deyə bilərəm ki, qurum Azərbaycan Respublikasının müvafiq dövlət orqanları ilə Naxçıvan Muxtar Respublikasının müvafiq dövlət orqanları arasında gündəlik əlaqələrin təmin olunması işini həyata keçirir. Bundan əlavə, muxtar respublikanın elm, təhsil, yaradıcılıq təşkilatları və digər ictimai qurumları ilə ölkənin müvafiq qurumları və müxtəlif sahələrdə fəaliyyət göstərən yaradıcı insanları arasında əlaqələrin yaradılması və genişləndirilməsi, muxtar respublikanın sosial-iqtisadi, mədəni həyatı ilə bağlı tədbirlərin təşkili və keçirilməsi də öhdəliklərimiz sırasındadır.

Daimi Nümayəndəliyin ən önəmli, əsas vəzifələrindən biri də öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasında fəaliyyət göstərən müvafiq beynəlxalq təşkilatlarla, xüsusilə xarici dövlətlərin ölkəmizdə fəaliyyət göstərən səfirlikləri, müvafiq qurumları ilə əməkdaşlıq etmək və xarici ölkə səfirlərinin Naxçıvan Muxtar Respublikasına səfərlərinə yaxından köməklik göstərməkdir.

***– Təmsil etdiyim "Şərq qapısı" qəzetində, eləcə də digər KİV-də mütəmadi olaraq Daimi Nümayəndəliyin xətti ilə müxtəlif tədbirlərin və görüşlərin təşkil olunması barədə məlumatlara rast gəlirik. Yola saldığımız 2019-cu ilə geri dönsək, il ərzində nümayəndəliyin hansı tədbirlərini qısaca xatırlamaq yerinə düşər?***

– Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin illik fəaliyyəti, qeyd etdiyim kimi, geniş spektrlidir. Bu mənada, xüsusi vurğulamaq istəyirəm ki, bu gün daimi nümayəndəlik nəinki Azərbaycan Respublikasında və hətta onun hüdudlarından kənarda belə, günü-gündən inkişaf edən, yüksələn doğma Naxçıvanımızı şərəflə təmsil edən bir dövlət orqanı kimi fəaliyyətini genişləndirməkdədir. Buna görə də ölkəmizdə və xarici dövlətlərdə keçirilən bir çox mühüm rəsmi, mədəni və digər tədbirlərdə iştirak edir, muxtar respublikamızın əldə etdiyi nailiyyətləri qürurla təbliğ edirik. Sevindirici hal ondan ibarətdir ki, son illər Daimi Nümayəndəlik bir çox sahədə səmərəli fəaliyyəti, uğurlu bir təmsilçilik nümunəsi formalaşdırıb, Azərbaycanın yüksək dövlət orqanları və ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun diqqət mərkəzinə çevrilib.

Ötən ilin yaddaqalan tədbirləri barədə danışarkən onu qeyd edim ki, 2019-cu il xalqımız, xüsusilə hər bir naxçıvanlı üçün Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illiyinin qeyd olunması ilə əlamətdar oldu. Ötən il, təbii ki, 95 illiklə



bağlı Daimi Nümayəndəlik bir sıra silsilə tədbirləri həyata keçirdi.

Onlardan ötən ilin fevral ayında Daimi Nümayəndəlikdə respublikamızın elm, mədəniyyət xadimlərinin, ictimai xadimlərin iştirakı ilə təşkil edilmiş "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətimizdir" adlı dəyirmi masanı qeyd edə bilərəm. Bu dəyirmi masada tanınmış ziyalıların iştirak etməsi, onların bir tərəfdən muxtariyyətimizin tarixinə və onun yaranma zərurətinə, Azərbaycanın tarixi, onun taleyində oynadığı mühüm rola olan münasibətini ifadə edirdisə, digər tərəfdən də, bugünkü müasir Naxçıvanımızın və heç vaxt olmayan böyük nailiyyətlərinə olan yüksək münasibəti, dəstəyi bir daha diqqətə çatdırırdı.

Keçən ilin oktyabr ayında Fransanın Paris şəhərində keçirilən Azərbaycan-Fransa regionlararası əməkdaşlığın inkişaf etdirilməsi üzrə İdarəetmə Komitəsinin ilk iclasını xüsusilə xatırlatmaq istəyirəm. Qürurvericidir ki, bu tədbirdə Naxçıvanı məhz Daimi Nümayəndəlik təmsil edib. Komitənin iclasında, belə demək mümkündürsə, Avropanın aparıcı dövləti sayılan Fransada, onun rəsmi şəxslərinin, xüsusilə bu ölkənin regionlarını təmsil edən nümayəndələrin iştirak etdiyi rəsmi tədbirdə Naxçıvanın daha da yaxından tanıdılması üçün geniş təqdimat keçirilib. Bu il Naxçıvanda imzalanması nəzərdə tutulan Naxçıvan şəhəri ilə Fransanın Möntrö-Fot-Yon şəhəri arasında Dostluq və Əməkdaşlıq Xartiyası ilə bağlı, Fransadakı görüşlərin davamı olaraq, bildiyiniz kimi, biz adıçəkilən şəhərə də səfər etdik. Fikrimcə, bu, iki ölkə arasındakı əlaqələrin inkişafında yeni mərhələ kimi dəyərləndirilməlidir. Eyni zamanda bu, müasir, son dərəcə inkişaf etmiş, intibah dövrünü yaşayan ulu Naxçıvanımızı beynəlxalq arenada tanıtmaq baxımından böyük əhəmiyyətə malik bir səfər oldu.

***– Bəxtiyar müəllim, ötən il martın 2-də Bakı Beynəlxalq Muğam Mərkəzində Naxçıvan Muxtar Respublikasının yaranmasının 95-ci ildönümü münasibətilə Naxçıvan Dövlət və Uşaq filarmoniyaları kollektivlərinin konserti olmuşdu. Sizin tədbirdə əhatəli çıxışınızdan sonra Naxçıvanın incəsənət xadimlərinin ifasında möhtəşəm bir konsert proqramı izlədik...***

– Bəli, mən söhbətimizin davamında elə bu məqama toxunacaqdım. Necə deyərlər, siz məni qabaqladınız. Qeyd edim ki, Naxçıvan Muxtar Respublikasının 95 illiyi ilə bağlı təşkil olunan tədbirlər sırasında bu konsert ən yaddaqalan oldu. Siz də şahidi olmusunuz ki, konsertdə çox sayda xarici ölkələrin Azərbaycandakı səfirləri, diplomatik korpus nümayəndələri, deputatlar, ölkəmizin incəsənət xadimləri və ictimaiyyətin nümayəndələri iştirak etdilər. İstedadlı musiqiçilərimizin ifasında səslənən mahnı və musiqi nömrələri tədbir iştirakçılarının coşqun alqışına səbəb oldu. Konsert proqramından sonra xarici qonaqlar məmnunluqlarını bildirir, bu kimi proqramların tez-tez təşkil olunmasını arzu edirdilər. Bizə bundan dəyərli hədiyyə nə ola bilər?

Ötən il həm də zəngin elmi-fəlsəfi irsə malik olan görkəmli mütəfəkkir Baba Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi baxımından yaddaqalan il oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu məqsədlə imzaladığı müvafiq sərəncama əsasən Naxçıvanda və Türkiyədə bir sıra tədbirlər, konfranslar keçirildi. Naxçıvanda "Görkəmli Azərbaycan mütəfəkkiri: Nemətullah Naxçıvani" Beynəlxalq konfransının keçirilməsi bu tədbirlərin nəticəsi kimi mühüm əhəmiyyət kəsb etdi. Cənab Vasif Talıbovun təşəbbüsü və qayğısı ilə Naxçıvanda nəşr edilmiş, görkəmli mütəfəkkirə həsr olunan "Nemətullah Naxçıvani" kitabının Bakı şəhərində təqdimatının keçirilməsi və kitabın yayılmasını təmin etmək öhdəmizə düşən vəzifələrdən idi. Bununla bağlı keçirilmiş konfransda iştirakımız bizim üçün yaddaqalan və əhəmiyyətli oldu.

***– "Paytaxtımızdakı Naxçıvan"... Bu rəmzi ifadəni qısaca olaraq necə şərh edə bilərsiniz?***

– Qeyd etdiyim kimi, Daimi Nümayəndəlik, təkcə Azərbaycan Respublikasının tərkibində muxtar dövlət statusu qazanmış Naxçıvan Muxtar Respublikası ilə Azərbaycan Respublikasının müvafiq dövlət orqanları arasında gündəlik əlaqələrin təmin edilməsini həyata keçirən təşkilat kimi deyil, eyni zamanda muxtar respublikanın xarici-iqtisadi əlaqələrinin qurulmasında da yaxından iştirak etməkdədir. Bununla yanaşı, əsasnaməyə daxil edilən bir sıra müddəalar da var ki, nümayəndəlik həm də bu müddəalar üzrə fəaliyyətini davam etdirir.

Bu gün Daimi Nümayəndəliyin fəaliyyəti Naxçıvan Muxtar Respublikasının adı ilə birbaşa bağlıdır və bu fəaliyyət muxtar respublikanın bütün sahələrini əhatə edir. O baxımdan çalışırıq ki, muxtar respublika rəhbəri tərəfindən qarşımıza qoyulan tələb və prinsiplərə uyğun şəkildə, bu gün Heydər Əliyev ideyaları ilə irəliləyən, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə davam və inkişaf etdirilən uğurlu siyasətin Naxçıvandakı real nəticələrini xalqımıza, vətəndaşlarımıza, eyni zamanda beynəlxalq aləmə layiqincə, olduğu kimi çatdıraq.

Bundan başqa, Naxçıvanın beynəlxalq iqtisadi münasibətlərinin də inkişaf etməsinə öz töhfəmizi verməyə çalışırıq. Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi inkişaf və həyatın bütün sahələrində əldə olunmuş nailiyyətlər onu deməyə əsas verir ki, Naxçıvan, təkcə Azərbaycanın deyil, eyni zamanda dünyanın diqqət mərkəzinə çevrilib. Daimi Nümayəndəliyin Azərbaycanda fəaliyyət göstərən diplomatik korpus nümayəndələri ilə birbaşa münasibətlərin yaranması və eyni zamanda səfirlərin Daimi Nümayəndəliyə tez-tez gəlişi Naxçıvana olan diqqət və xüsusi marağı açıq göstərir. Təkcə bir faktı vurğulamaq istəyirəm ki, 2019-cu ildə Daimi Nümayəndəliyə Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici ölkələrin 50-dək səfiri gəldi. Bu səfirlərin böyük əksəriyyəti sonradan Naxçıvan Muxtar Respublikasına rəsmi səfərlər etdi, diyarımızda bu gün həyata keçirilən uğurlu sosial-iqtisadi inkişafın nailiyyətlərinin canlı şahidi oldu və bir çox hallarda mətbuata bu barədə öz fikirlərini bildirdi.

Bununla yanaşı, il ərzində bir çox ölkələrin milli bayram və əlamətdar günləri ilə bağlı təşkil edilmiş rəsmi qəbullarda iştirak etmişik. Xarici ölkə səfirlərinin Daimi Nümayəndəliyin timsalında Naxçıvana olan marağını, münasibətini, Naxçıvan Muxtar Respublikasına tez-tez səfərlərini, orada həyata keçirilən işlərlə yaxından tanışlığını diqqət mərkəzinə gətirsək, fəxrlə deyə bilərik ki, bu gün Naxçıvanın real inkişaf mənzərəsini beynəlxalq aləmə çatdıra bilirik.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasət bu gün Naxçıvanda uğurla həyata keçirilir. Əldə etdiyimiz nailiyyətlər onu deməyə əsas verir ki, bu gün Azərbaycan ulu öndər Heydər Əliyevin vaxtilə düşündüyü formada inkişaf edir və bu işdə flaqman sayıla biləcək Naxçıvan Muxtar Respublikası buna əyani sübutdur. Muxtar respublikada həyatın bütün sahələrində inkişaf göz qabağındadır. Burada insanların firavan həyatı, yaşayışı yüksək səviyyədə təmin edilib, vətəndaş məmnunluğuna tam nail olunub. Ölkə Prezidenti cənab İlham Əliyevin hər il Naxçıvana səfərləri zamanı bu diyarın inkişafını yüksək qiymətləndirməsi bizim üçün əsas göstəricidir. Muxtar respublikada həyatın bütün sahələrində əldə olunmuş nailiyyətləri, uğurları, bəzi hallarda tam statistik məlumatları mətbuata təqdim edir, beləliklə Azərbaycan ictimaiyyətinin, eyni zamanda xarici ölkələrin Bakıdakı səfirliklərinin müəyyən mənada marağına səbəb olan faktları tez-tez mətbuata açıqlayırıq.

***– Bəxtiyar müəllim, Daimi Nümayəndəlik, həm də Bakı şəhərində yaşayan naxçıvanlılar üçün bir sıra məsələlərin həllini tapmasında vasitəçi olur...***

– Daimi Nümayəndəlik Bakı şəhərində yaşayan naxçıvanlılar üçün bir dayaqdır, ümid yeridir desək, doğru olar. Çünki bizə müraciət edənlərin hər biri ilə yaxından maraqlanır, onların problemlərini qanunvericiliyin tələbləri əsasında həll etməyə çalışırıq. Daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək bizim vəzifələrimiz sırasındadır.

Onu da qeyd edim ki, 2019-cu il Daimi Nümayəndəliyimiz üçün bir məqamla daha yaddaqalan oldu. Belə ki, ötən ildən Daimi Nümayəndəlikdə Bakı şəhərində və respublikamızın digər bölgələrində yaşayan, Naxçıvanda daimi qeydiyyatda olan vətəndaşlara şəxsiyyət vəsiqələrinin verilməsi işi təşkil olunub. Bu da çox sevindirici haldır. Qərara alınıb ki, bu proses il ərzində bir neçə dəfə həyata keçirilsin. Muxtar respublika rəhbərinin təşəbbüsü ilə, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşlarının Daimi Nümayəndəliklə birgə həyata keçirdikləri bu kampaniya vətəndaşlar tərəfindən çox böyük rəğbət və sevinc hissi ilə qarşılanıb. Əvvəllər insanlar çox uzaq məsafə qət edərək şəxsiyyət vəsiqəsi əldə etmək və ya dəyişdirmək üçün Naxçıvana getməli olurdular. Bu gün artıq o problem də öz həllini tapıb.

***– Bakı şəhərində Naxçıvandan olan çox sayda tələbələr, magistrlər təhsil alırlar. Onların nümayəndəliklə bağlı müraciətləri olurmu?***

– Çox düzgün buyurdunuz. Müxtəlif ali təhsil müəssisələrində təhsil alan tələbələrin də nümayəndəliyimizə müxtəlif məsələlərlə bağlı müraciətləri olur. Bu müraciətlərin yerində araşdırılması və onların aradan qaldırılmasına çalışırıq.

Onu da qeyd edim ki, Ali Məclis Sədrinin diqqət və qayğısı ilə ölkəmizin yaradıcı insanlarının, görkəmli elm xadimlərinin Naxçıvan Muxtar Respublikasında, müasir texnologiya vasitəsilə çap olunmuş əsərlərinin, kitablarının da Daimi Nümayəndəlikdə təqdimat mərasimlərini keçirirk. Bu gün kollektiv olaraq çalışırıq ki, həyata keçirdiyimiz tədbirlərlə cəmiyyətin bizə olan inamını, müsbət münasibətini həmişə yüksək səviyyədə saxlayaq. Çünki biz anlayırıq ki, gördüyümüz bütün işlərlə Naxçıvanı təmsil edirik.

***– Qeyd etdiyiniz kimi, Daimi Nümayəndəlik dövlət qurumları ilə geniş əlaqələrə malikdir. Kütləvi informasiya vasitələri, eləcə də təmsil etdiyim "Şərq qapısı" qəzeti ilə əlaqələr barədə nə deyə bilərsiniz?***

– Təbii ki, biz Naxçıvan mətbuatının daimi abunəçisiyik. "Şərq qapısı" qəzeti bu gün Naxçıvanın reallıqlarını operativ şəkildə öz səhifələrində işıqlandırır. Nümayəndəliyin fəaliyyətini, əldə etdiyimiz uğurları "Şərq qapısı"nın səhifələrində görmək qürurvericidir. Fürsətdən istifadə edib gündəlik fəaliyyətimizi işıqlandıran Naxçıvan Televiziyasının kollektivinə, "Nuhçıxan" İnformasiya Agentliyinə də sonsuz təşəkkürümü ifadə edirəm.

***– Son olaraq, 2020-ci il üçün Daimi Nümayəndəliyin qarşısında duran vəzifələr barədə qısaca məlumat almaq istərdim...***

– Özünüz də tanışlıq zamanı şahidi oldunuz ki, nümayəndəliyimizin kollektivi, bütövlükdə, gənclərdən ibarətdir. Gənclik isə enerji və yenilik deməkdir. Biz də yaradılan bu imkanlardan istifadə edərək çalışacağıq ki, 2020-ci ildə qarşımızda duran vəzifələri daha yüksək səviyyədə, Vətənimizə olan sonsuz məhəbbətimizlə, şövqlə yerinə yetirək.

*Geniş müsahibəyə görə Bəxtiyar Əsgərova minnətdarlığımı bildirib, nümayəndəlikdən ayrılıram. Bu tanışlıq və apardığım söhbətlərdən də bir daha əmin oldum ki, paytaxtımız Bakıda Naxçıvan çox gözəl təmsil olunur. Bakı şəhərindəki Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyi naxçıvanlıların doğma diyardan kənardakı qürur mənbəyi, əsl dəstək ocağı, doğma yurdumuzun əziz bir guşəsidir.*

**✍ Gülcamal TAHİROVA**
**Naxçıvan-Bakı-Naxçıvan**

# Dövlət proqramının icrası uğurla davam etdirilir

*Xalçaçılıq xalqımızın milli mədəniyyəti tarixində özünəməxsus yer tutur. Xalça sənəti Naxçıvanda da geniş yayılan xalq yaradıcılığı növlərindən biridir. Bu mənada,* ***"Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"*** *milli xalçaçılıq ənənələrinin qorunması, inkişaf etdirilməsi və əhalinin məşğulluğunun təmin edilməsində müstəsna rola malikdir.*

2019-cu ildə bu istiqamətdə bir sıra təşkilati işlər görülmüş, əllə xalçatoxuma sənəti sahəsində unudulmaqda olan ənənələrin, bədii və texniki iş üsullarının, xalça çeşidlərinin bərpası, inkişaf etdirilməsi və gənclərin xalçaçılıq sənətinə marağının artırılması məqsədilə xalq yaradıcılığı emalatxanasının xalçaçılıq bölməsi bərpa olunmuş, xalçaçılar istifadə olunan xammal, xalçatoxuma məmulatları və hanalarla təmin edilmişdir. Emalatxananın xalçaçılıq bölməsində və Cəlilkənd "Buzxana" Kompleksində müxtəlif ölçülərdə 44 ədəd xalça toxunmuş, 5 ədəd xalçanın toxunuşu davam etdirilmiş və toxunmuş 8519 manat dəyərində 41 ədəd xalçanın satışı həyata keçirilmişdir.



Duzdağ, Təbriz və Qrand otellərində, Əshabi-Kəhfdə, Duzdağ Fizioterapiya Mərkəzində bütün yaradıcılıq sahələrini əhatə edən sərgi-satış xidməti obyektində əl işləri və yerli məhsulların sərgi-satışı təşkil edilmişdir. "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" sosial layihəsi çərçivəsində 5 xalçaçı qadınla müqavilə bağlanılmış, milli çeşnilər əsasında evlərdə xalça toxunması məqsədilə onlar material və avadanlıqlarla təmin olunmuşlar. Toxunuşu yekunlaşan 5 ədəd xalça satın alınaraq muxtar respublikada təşkil olunmuş sərgi-satışlarda nümayiş etdirilmişdir. Bu, məşğulluğu təmin etməklə yanaşı, həm də xalçaçılıq sənətinin yaşadılması istiqamətində atılan mühüm addımlardandır.

"Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində əmək bazarının tələbinə uyğun milli və xalq tətbiqi sənəti növləri, unudulmaqda olan ənənələrin bədii və texniki iş üsullarının bərpası üzrə peşə kurslarının keçirilməsi məqsədilə "Tədris Planı" hazırlanmışdır.

Muxtar respublikada fəaliyyət göstərən 60-dan çox müxtəlif ağac üzərində oyma, misgər, xalçaçı, papaqçı, dulusçu, bədii incəsənət, dekorativ-tətbiqi sənət sahələri ilə məşğul olan sənətkarlarla əlaqə saxlanılmış, Azərbaycan Respublikasını, eləcə də Naxçıvan Muxtar Respublikasını tanıdan suvenirlərin, hədiyyəlik xatirə əşyalarının hazırlanması təmin edilmişdir. Xalçaçılıq sənəti ilə bağlı yaşlı nəsillərin və sənətkarların ənənəvi xalçaçılıq sənətinin bədii və texniki iş üsulları xalq yaradıcılığı emalatxanasında 2 nəfər müdavimə, Naxçıvan Dövlət Universitetinin 15 tələbəsinə öyrədilmişdir.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialında xalçaçı sənətkarlar tərəfindən 300 kvadratmetrdən çox xalça toxunmuşdur. Bundan əlavə, muxtar respublikada əllə toxunmuş xalçaların reyestri yaradılmış, 585 xalça haqqında məlumat reyestrə daxil edilmişdir.

Naxçıvan xalçalarının dünya bazarında satışının həyata keçirilməsi üçün, ilk növbədə, onun təbliği və təqdimatı vacib şərtlərdəndir. Belə ki, cari ildə xalçalar haqqında məlumatlar hazırlanmış və *biznesmerkez.info.az* internet saytında yerləşdirilmiş və sayta nəzarət edilmişdir. Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində, eləcə də sosial şəbəkələrdə xalçaçılıq irsinin təbliği məqsədilə fotoşəkillər, videoçarxlar və məqalələr yerləşdirilmişdir. Muxtar respublikada istehsal olunan xalçaların xaricə aparılmasına müvafiq şərait yaradılmış, xalçaçılıqda istifadə olunan xammalın, avadanlıqların və alətlərin gömrük sərhədindən sadələşdirilmiş qaydada keçirilməsi təmin edilmişdir.

Sərhəd-keçid məntəqələrində olan elektron məlumat guşələrində yerləşdirilən videoçarxlarda məlumatların muxtar respublikaya gələn turistlərə çatdırılması təmin edilmiş, infoköşklərdə şəxsi istifadə məqsədilə malların, o cümlədən xalçaların gömrük sərhədindən keçirilməsi qaydalarına dair qanunvericilik yerləşdirilmişdir. Beləliklə, həm ölkə daxilində, həm də xaricdə satılacaq xalçalar iqtisadiyyata töhfə verməklə yanaşı, muxtar respublikada özəl sektorun inkişafına da əlavə stimul yaradacaqdır.

Xalçatoxuma sahələrini xammalla təchiz etmək və ixtisaslı kadrların hazırlanması, əllə xalçatoxuma sahəsində peşə təhsilinin dəstəklənməsi istiqamətində işlər davam etdirilib. Əllə xalçatoxuma sahəsində peşə təhsilinin dəstəklənməsi məqsədilə Naxçıvan Şəhər Peşə Liseyi, Şərur və Ordubad Texniki Peşə və Sürücülük məktəblərində xalçaçı peşəsi üzrə, ümumilikdə, 3 qrup üzrə 31 müdavim kursu başa vurmuş, 1 qrup üzrə isə 12 müdavim Ordubad Texniki Peşə və Sürücülük məktəbində təhsilini davam etdirmişdir. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətin Qarışıq Cəzaçəkmə Müəssisəsində məhkum qadınlardan ibarət xalçaçı kursu təşkil olunmuşdur.

Naxçıvan xalçaçılıq məktəbinin elmi cəhətdən və sistemli şəkildə araşdırılması, yeni elmi nəşrlərin hazırlanması, xalçaçılıq sahəsində unudulmaqda olan ənənələrin bərpası istiqamətində Naxçıvan Müəllimlər İnstitutunda keçirilən "Naxçıvan xalçaçılığı: keçmişdən günümüzə" adlı konfransda Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi seminarında "Naxçıvanda xalçaçılıq məktəbi", AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin iclasında "Naxçıvanda xalçaçılıq sənətinin meydana gəlməsi və inkişaf yolları" mövzusunda məruzələr edilmişdir.

Qeyd edək ki, ötən dövrdə Naxçıvan xalçaçılıq məktəbinin elmi cəhətdən və sistemli şəkildə araşdırılması, yeni elmi nəşrlərin hazırlanması məqsədilə AMEA Naxçıvan Bölməsində aparılan tədqiqat işləri ilə əlaqədar bir monoqrafiya nəşr olunmuş, üç elmi məqalə isə çapa təqdim edilmişdir. Naxçıvan xalçaçılıq məktəbinə aid yeni nəşrlərin tədris planına salınması və tədrisin təşkili məqsədilə Naxçıvan Dövlət Universiteti Təsviri incəsənət müəllimliyi və Rəngkarlıq ixtisaslarında buraxılış, elmi-tədqiqat, Tələbə Elmi Cəmiyyəti işlərinin mövzuları təyin olunarkən Naxçıvan xalçaçılıq tarixi, Naxçıvan xalçaçılıq məktəbi və Naxçıvanda xalçaçılığın inkişafı ilə bağlı mövzulara daha çox yer verilməsi nəzərdə tutulmuşdur. "Azərbaycan xalçaçılıq sənəti" adlı dərs vəsaiti nəşr olunmuş, magistraturanın Təsviri incəsənət tarixi və nəzəriyyəsi ixtisası üçün Xalçaçılıq fənnindən fənn proqramı tərtib edilmiş, bakalavr təhsil səviyyəsinin Təsviri incəsənət müəllimliyi ixtisasının tədris proqramına Xalçaçılıq fənni daxil edilmişdir.




Naxçıvan Dövlət Universitetinin müəllimləri "Naxçıvan xalçalarında naxışların bədii xüsusiyyətləri", "Tariximizin yun kitabələri – Naxçıvan xalçaları" adlı məqalələr və "Naxçıvan xalçası", "Muğam üçlüyü" adlı əsərlərlə keçirilmiş tədbirlərdə iştirak etmişdir. Xalça ornamentlərini öyrənən tələbələr Azərbaycan xalça məktəbinin ənənələrinə uyğun dekorativ-tətbiqi sənət nümunələri kimi tapşırıqlar yerinə yetirmiş, bu mövzularda təşkil olunan sərgilərdə iştirak etmişlər. Memarlıq ixtisasında seçmə fənn olan Xalçaçılıqda memarlıq ornamentləri fənni tədris planına daxil edilmişdir. "İstedadlı xanımların əl işləri" sərgisində Təsviri incəsənət müəllimliyi və Rəngkarlıq ixtisaslarında təhsil alan tələbələr "Xalçaçılıq" mövzusunda yaratdığı əsərlərlə iştirak etmişlər.

Naxçıvan Müəllimlər İnstitutunda "Naxçıvan xalçaçılığı: keçmişdən günümüzə" mövzusunda elmi-praktik konfrans keçirilmişdir. Təsviri incəsənət müəllimliyi ixtisası üzrə bakalavr hazırlığı üçün mövcud tədris planının İxtisas-peşə fənləri bölümünün seçmə fənləri sırasına "Naxçıvan xalçaçılıq məktəbi" adlı seçmə fənn daxil olunmuş, uyğun fənn proqramı hazırlanıb təsdiq və çap edilmişdir. "Naxçıvan xalçaçılıq məktəbi" fənninin tədrisi məşğələlərini səmərəli təşkil etmək, gənc tələbələrdə bu sənətə daha da maraq yaratmaq məqsədilə "Xalçaçılıq" tədris emalatxanası yaradılmış, emalatxana zəruri avadanlıqlar və toxuculuq materialları ilə təchiz olunmuş, mütəxəssislərin rəhbərliyi altında qısamüddətli toxuculuq kursları təşkil edilmiş, tələbələrin təcrübi məşğələlərinin təşkili ilə yanaşı, əməkdaşların və tələbələrin iştirakı ilə Naxçıvan Müəllimlər İnstitutunun loqosunu əks etdirən ilk xalçanın toxunuşu başa çatdırılmışdır.

Nəticə etibarilə muxtar respublikada Naxçıvan xalçaçılıq məktəbinin öyrənilməsi, təbliği və inkişaf etdirilməsi sahəsində həyata keçirilən tədbirlər xalçaçılıq sahəsində maddi və mədəni irsin qorunması, yeni iş yerləri yaradılması, xalçaçılıq sahəsində, o cümlədən yun tədarükü və emalı, yun ipliklərin istehsalı üzrə ixtisaslı kadrların formalaşması, Naxçıvan xalçasının rəqabət qabiliyyətinin və ixrac potensialının artması, Naxçıvanın tarixi xalçaçılıq mərkəzinə xas olan qədim çeşnilərin bərpa edilməsi və şöhrətinin özünə qaytarılması yeni mərhələnin başlanğıcına çevrilmişdir. Şübhəsiz ki, bu mərhələ dekorativ-tətbiqi sənətimizin möhtəşəm nümunəsi olan xalçaçılığın Naxçıvan Muxtar Respublikasında inkişafına özünün böyük töhfələrini verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Doktorant və dissertantların attestasiyası keçirilib



*"Naxçıvan" Universitetində təhsil alan doktorant və dissertantların attestasiyası keçirilib.*

Tədbiri giriş sözü ilə universitetin rektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Nurlana Əliyeva açaraq dissertasiya mövzularına dair tədqiqatların aparılmasının və dünyanın nüfuzlu elmi bazaları ilə əməkdaşlıq əlaqələrinin yaradılmasının zəruriliyindən danışıb.

Sonra universitetin doktorant və dissertantları 2019-cu il ərzində yerinə yetirdikləri elmi-tədqiqat işləri haqqında hesabat veriblər. Onların fərdi planlarında nəzərdə tutulmuş işləri, konfranslarda iştirakları, nəşr olunan yazıları müzakirə edilib.

Sonda attestasiya komissiyası üzvlərinin təklif və tövsiyələri dinlənilib. Mövcud tələbləri yerinə yetirən doktorant və dissertantlar növbəti təhsil ilinə buraxılıblar.

Qeyd edək ki, "Naxçıvan" Universitetində 11 ixtisas üzrə 6 doktorant, 17 dissertant təhsil alır ki, bunlardan bir nəfər doktorant xarici ölkə vətəndaşıdır.

**Seyfur HACIMURADOV**

# Hərbi xidmətdən yeni tərxis olunanların məşğulluğu diqqət mərkəzindədir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamına əsasən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq hərbi xidmətdən tərxis edilmiş şəxslərin də məşğulluqlarının təmin olunması diqqət mərkəzində saxlanılır.*

Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkilatçılığı ilə xidmətin Naxçıvan Şəhər İdarəsində Naxçıvan şəhərindən olan gənclərlə görüş keçirilib. Tədbirdə hərbi xidmətdən yeni tərxis olunmuş gənclərin vakant iş yerlərinə göndərilməsi, müvafiq peşə və ixtisaslara yiyələnmək üçün peşə hazırlığı kurslarına cəlb olunması, onların əmək bazarına inteqrasiyası və rəqabət qabiliyyətinin artırılması, sosial rifah halının yaxşılaşdırılması, haqqıödənilən ictimai işlərə cəlb olunmaları və özünüməşğulluqlarının həyata keçirilməsi ilə bağlı məlumatlar verilib.



Həmçinin tədbirdə məlumat guşəsi yaradılıb. Gənclərin vakant iş yerlərinə, peşə hazırlığı kurslarına, haqqıödənilən ictimai işlərə göndərilməsi məqsədilə qeydiyyat aparılıb. Mövzu ətrafında gəncləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Dünən Babək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 24 dekabr tarixli Sərəncamından irəli gələn məsələlərin icrasını təmin etmək üçün əhalinin maarifləndirilməsi məqsədilə tədbir keçirilib.*

# İcbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbir olub



Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov açıb. Bildirib ki, müvafiq sərəncama əsasən bu il yanvarın 1-dən etibarən Babək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılıb. O, icbari tibbi sığortanın əhəmiyyəti barədə danışıb, rayonda bu istiqamətdə görülən işləri diqqətə çatdırıb, keçirilən tədbirin əhəmiyyətini vurğulayıb.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov çıxışında bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamlarına uyğun olaraq icbari tibbi sığortanın mərhələli şəkildə ilk olaraq Sədərək, sonra isə Şərur, Kəngərli, Şahbuz və Ordubad rayonlarında tətbiqinə başlanılıb və tibb müəssisələrinə publik hüquqi şəxs statusu verilib. İcbari tibbi sığortanın tətbiqi məqsədilə rayon mərkəzi xəstəxanalarında və icbari tibbi sığortanın tətbiqində iştirak edən digər tibb müəssisələrində agentliyin qeydiyyat məntəqələri yaradılıb və fəaliyyətləri təmin edilib.

Vurğulanıb ki, icbari tibbi sığortanın tətbiqi məqsədilə Babək Rayon Mərkəzi Xəstəxanasında yenidənqurma və təmir-bərpa işləri həyata keçirilib, mərkəzi oksigen sistemi qurulub, fiber-optik xətlər vasitəsilə internet şəbəkəsi, mərkəzi server və Medisoft "Səhiyyə informasiya idarəetmə sistemi" yaradılıb. Hazırda xəstələrin qeydiyyatı "Səhiyyə informasiya idarəetmə sistemi" vasitəsilə aparılır. Xəstəxananın Təcili tibbi yardım şöbəsi yenidən təşkil edilib, maddi-texniki bazasını gücləndirmək və göstərilən tibbi xidmətin keyfiyyətini yüksəltmək məqsədilə müasir tibbi cihaz və avadanlıqlar quraşdırılıb. Həmçinin agentliyin qeydiyyat məntəqəsi yaradılaraq fəaliyyəti təmin edilib.

Sonra İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin əməkdaşları Vüsal Məmmədovun "İcbari tibbi sığorta nədir?", Nazəni Rüstəmlinin "İcbari tibbi sığortada tibbi xidmətin təşkili" mövzularında çıxışları dinlənilib. Həmin mövzularla bağlı slaydlar nümayiş etdirilib, tədbir iştirakçılarının sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi***

## Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə seçkiqabağı təşviqatın aparılması ilə bağlı açıq və qapalı yerlərin siyahısı

| | |
|---|---|
| **Naxçıvan şəhərində**<br>Açıq yer - Naxçıvan Şəhər Stadionu<br>Qapalı yer - Gənclik Mərkəzi | **Şərur rayonunda**<br>Açıq yer - Şərur Olimpiya Stadionu<br>Qapalı yer - "Bahar" kinoteatrı |
| **Babək rayonunda**<br>Açıq yer - Babək Qəsəbə Stadionu<br>Qapalı yer - Babək Rayon Mədəniyyət Sarayı | **Ordubad rayonunda**<br>Açıq yer - Ordubad Şəhər Tədbirlər Meydanı<br>Qapalı yer - Ordubad Rayon Mədəniyyət Sarayı |
| **Culfa rayonunda**<br>Açıq yer - Culfa Şəhər Stadionu<br>Qapalı yer- Culfa Rayon Mədəniyyət Sarayı | **Kəngərli rayonunda**<br>Açıq yer - Qıvraq Qəsəbə Stadionu<br>Qapalı yer - Kəngərli Rayon Mədəniyyət Sarayı |
| **Şahbuz rayonunda**<br>Açıq yer - Şahbuz Şəhər Stadionu<br>Qapalı yer - "Araz" kinoteatrı | **Sədərək rayonunda**<br>Açıq yer - Sədərək Rayon Mədəniyyət Sarayının ərazisi<br>Qapalı yer - Sədərək Rayon Mədəniyyət Sarayı |

***Dünən Cəmşid Naxçıvanski Muzeyində "2020-ci ildə muzeylərdə mədəni-kütləvi tədbirlərin təşkili" mövzusunda seminar-treninq keçirilib.***

## İlin ilk seminar-treninqi təşkil olunub



Tədbirdə nazirliyin baş məsləhətçisi Qumral Əsədova çıxış edərək bildirib ki, muxtar respublikada fəaliyyət göstərən müxtəlif profilli muzeylər bu gün dövlətin göstərdiyi hərtərəfli qayğı ilə əhatə olunur, onların maddi-texniki bazası gücləndirilir, əməkdaşlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamından sonra muzeylərin ziyarətçilərinin sayında əhəmiyyətli dərəcədə artım müşahidə olunur. Bu səbəbdən muzey əməkdaşları öz işlərini düzgün qurmağı bacarmalı, qonaqlarına yüksək səviyyədə xidmət göstərməlidir.

Qeyd olunub ki, seminar-treninqlər muzey işçilərinin muxtar diyarımızın bütün bölgələrində yerləşən muzeylərlə tanış olmalarına şərait yaratmaq baxımından da əhəmiyyətlidir. Belə tədbirlərdə muzey əməkdaşlarına bu sahədə həyata keçirilən yeniliklərdən söhbət açılır, onların sualları cavablandırılır.

Tədbirdə Cəmşid Naxçıvanski Muzeyinin direktoru Abasət Nuriyev muzeydə mədəni-kütləvi tədbirlərin təşkili istiqamətində qarşıda duran vəzifələrdən danışıb.

Sonra həmin muzeyin əməkdaşı, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Gülnaz Hüseynova çıxış edərək bildirib ki, mədəni-kütləvi tədbirlərin keçirilməsi həm muzey əməkdaşlarının peşə biliklərinin artırılmasına, həm də tədbir iştirakçılarının dünyagörüşünün inkişafına xüsusi təsir göstərir.

Sonra mövzu ətrafında müzakirələr aparılıb, muzey əməkdaşlarını maraqlandıran suallar cavablandırılıb. Tədbir muzey ekspozisiyasına baxışla yekunlaşıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Milli mətbəximiz*

## Qış süfrələrimizin bəzəyi – *xəmir yeməkləri*

*Naxçıvanın özü qədər qədim olan mətbəxi özünəməxsus xüsusiyyətlərinə görə çox fərqli və zəngindir. Xalqımız yaşam tərzini uzun illərin təcrübəsinə, təbii-coğrafi şəraitə uyğun olaraq qurub. Yaşlı nəsillər bu məsələdə üç əsas amilə – qış ərzaq ehtiyatına, geyim və yanacaq amillərinə xüsusi önəm veriblər. Təbii ki, bu sırada ən mühümü ərzaq ehtiyatıdır. Bunlar içərisində başlıca yeri un və heyvandarlıq məhsulları tutur.*





Elə ki havalar soyudu, ət və undan hazırlanan əsas qış yeməkləri süfrələrimizə gətirilir. Bu fəsildə təzə göyərti və tərəvəz olsa da, bol-bol yay tədarüklərindən – qurudulmuş göyərti, şoraba və mürəbbələrdən istifadə edirik. Qış fəslində bişirilən xörəklər içərisində əriştədən hazırlanan *əriştə istisi* və *əriştə aşı*nın da xüsusi yeri vardır. Əriştəni nazik yayılmış xəmirdən uzunsov olaraq kəsib təzə halda bişirir, bəzən də qurudur, qovurur və lazım gələndə istifadə edirlər. Əriştə istisi sulu xörək kimi bişirilir. Soğanı qovurma ilə qızardırıq. Bu yeməyə dad verən ərzaqlardan biri onun içərisinə bütöv şəkildə atılmış soğan olduğu üçün hələ payızda, məhsul tədarükü zamanı bu bitkinin ən balacaları seçilir, qışa əriştə istisi üçün saxlanılır. Ayrıca olaraq maş dənələri də qaynadılır. Suyu süzülür və yeməyə əlavə olunur. Quru alça, ərik isə yemək hazır olana yaxın, yəni əriştə qazana tökülməmişdən qabaq xörəyə vurulur. Onu da qeyd edək ki, qədim yurdumuzun dağlarında əvəlik, ələyəz kimi müalicəvi əhəmiyyəti olan bitkilər bitir. Yazın son vaxtlarında həmin bitkilər yığılıb qurudulur. Payız-qış aylarında soyuqdəymə və mədə-bağırsaq xəstəlikləri olan adamlara bu bitkilərdən hazırlanan yeməklərin çox böyük faydası olur. Yuxarıda bəhs etdiyimiz əriştə istisinə də xüsusi dad və ətir verən ələyəzi yeməkdə istifadə etmək üçün mütləq qaynar suda islatmaq lazımdır. Sonra ələyəzi sudan çıxarıb möhkəm sıxırıq ki, "acı suyu" çıxsın. Təzə kəsilmiş əriştə ilə bu yeməyi bişirəndə daha dadlı olur. Bir də ki kəsilən əriştəni dəstələyəndə, bir az unlu saxlayıb yeməyə əlavə edəndə yeməyin suyu qatılaşar. Bu da onun həm doyuruculuğunu, həm də dadını artırar. Qazana ən son əriştəni əlavə edirik, əriştə qazandakı suyun üzərinə çıxanda yemək hazır olur.

Əvvəllər qovurulmuş, qurudulmuş əriştədən aş bişirmək əhali arasında dəbdə idi. Bu gün də çox evlərdə bu yemək hazırlanır. Düyü yaxşı-yaxşı yuyulduqdan sonra duzlu suda isladılır. Ayrıca qazanda su qaynadılaraq duz əlavə edilir, sonra isə düyünü qazana tökürük. Düyü suda qaynayan zaman bir neçə dəfə kəfkirlə qarışdırılır. Sonra qızardılmış əriştə qazana tökülərək bişənə qədər qaynadılır. Düyü və əriştə yumşaldıqda aşsüzəndə süzülür. Düyünü süzüb başqa bir qabın üzərinə qoyuruq ki, onu buxar vurub əzməsin və suyu tamamilə çəkilsin. Qazana ərinmiş yağ əlavə edilərək odun üstünə qoyulur. Yağ yaxşıca əridikdən sonra qazanın dibinə halqa-halqa doğranmış kartof düzülür, üzərinə əvvəlcədən doğranıb duzlanmış soğan və düyü əlavə olunur. Düyüyə azacıq sarıkök vurulur. Yenidən qazan vam odun üzərinə dəmə qoyulur. Aşın yaxşı dəm alması üçün qazan odun üstündə bir neçə dəfə fırladılır. Qazanın yanına bir qədər su çilədikdə su yumrulanıb cızıltıyla düşürsə, deməli, yemək hazırdır. Əriştə aşına aş-qara da hazırlanır, tərkibinə bəzən düyü, lobya və ya paxla, zövqdən asılı olaraq qovurma qatılır.

*Xəşil* də qış fəslində bişirilən dadlı yemək növüdür. Bunun üçün qaynar suya tədricən un əlavə edərək oxlovla çala-çala (qarışdıraraq) qaynadırlar. Məhlul qatılaşanda od üstündən götürülür, boşqablara çəkilir, üzərinə şəkər tozu, bal, ərimiş yağ və bəkməz tökülərək yeyilir. Xəşil, adətən, səhər yeyilir.

Xəmir xörəklərinin ən sadə və geniş yayılmış növlərindən olan *umac* öz tərkibinə görə üç növdə (adi, südlü, əvəlikli) hazırlanır. Südlü umac istisna olmaqla, digər umac növlərinə istiot və nar suyu qatılır, soyuqdəyməsi olan adamlara tərlətmə vasitəsi kimi verilir. Umacın hazırlanma qaydası isə belədir: unun üstünə duzlu su ilə çalınmış yumurta çilənir və un ovulur. Bu zaman xırda xəmir qırıntıları alınır. Yağda qızardılmış soğan suda qaynadılır, xəmir qırıntıları ələkdə silkələnib, artıq undan azad edilir və qaynar bulyona tökülərək arasıkəsilmədən qarışdırılır. Süfrəyə verildikdə umaca nanə səpilir. Bu yeməyin bir çox bişirilmə qaydası var. Bəzi kəndlərdə ət, qovurma ilə bişirilib içərisinə əvəlik və ya ələyəz qatılır.

Bu gün muxtar respublikamızda ailə təsərrüfatı yaratmaq üçün münbit şəraitdən istifadə edən evdar qadınlarımız nənələrimizin əlinin dadı gizlənən və onların əzizləyə-əzizləyə bişirdiyi bu yeməklərdə istifadə olunan əriştəni hazırlayıb istənilən dükan və marketlərdə satışa çıxarırlar. Bu da həm işləyən, həm də əriştə hazırlamağı bacarmayan xanımların işini asanlaşdırır.

**✍ Ramiyyə ƏKBƏROVA**

### Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2019-cu ilin dekabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3092 | 227,3 | 227,3 | 100,0 |
| 2. | Şərur rayonu | 2238 | 158,2 | 158,2 | 100,0 |
| 3. | Babək rayonu | 1305 | 93,6 | 93,6 | 100,0 |
| 4. | Ordubad rayonu | 783 | 55,8 | 55,8 | 100,0 |
| 5. | Culfa rayonu | 601 | 43,0 | 43,0 | 100,0 |
| 6. | Kəngərli rayonu | 434 | 31,7 | 31,7 | 100,0 |
| 7. | Şahbuz rayonu | 310 | 22,6 | 22,6 | 100,0 |
| 8. | Sədərək rayonu | 157 | 11,1 | 11,1 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 19383 | 1744,5 | 1808,0 | 103,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **28303** | **2387,8** | **2451,3** | **102,7** |

**Qeyd:** Dekabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 28 milyon 303 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 387 min 800 manat olmuş, cəmi 2 milyon 451 min 300 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 102,7 faizini təşkil edir.

### Naxçıvan Muxtar Respublikası üzrə 2019-cu ilin dekabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Kəngərli rayonu | 1372501 | 171844 | 171864 | 100,0 |
| 2. | Şahbuz rayonu | 882558 | 115605 | 115615 | 100,0 |
| 3. | Naxçıvan şəhəri | 4821544 | 662705 | 662759 | 100,0 |
| 4. | Ordubad rayonu | 1776927 | 213017 | 213034 | 100,0 |
| 5. | Babək rayonu | 3176362 | 430632 | 430663 | 100,0 |
| 6. | Şərur rayonu | 2849190 | 327235 | 327255 | 100,0 |
| 7. | Culfa rayonu | 1765949 | 214685 | 214697 | 100,0 |
| 8. | Sədərək rayonu | 366939 | 42806 | 42806 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 14439734 | 2415712 | 2328113 | 96,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **31451704** | **4594241** | **4506806** | **98,1** |

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 15